# Nəzəri biliklərin tətbiqi ərəfəsində

Son illər respublikamızda əldə olunmuş böyük sosial-iqtisadi inkişaf Qəbələ rayonunda turizmin inkişafı üçün geniş imkanlar açmışdır.Rayonumuzun turizm imkanlarını əvvəlcədən görən respublika Prezidenti cənab İlham Əliyev demişdi: **“Qəbələnin gözəl təbiəti burada turizmin inkişafı üçün əlverişli şərait yaradır.”**

Turizmin inkişafı üçün hər il rayonumuzda yeni mehmanxanaların, istirahət mərkəzlərinin və digər turist yerləşdirmə obyektlərinin təməli qoyulur.Turizmin yaxşı təşkilinin mühüm şərtlərindən biri turizm xidmətlərinin səviyyəsinin yüksək olmasıdır.Turizmin yaxşı təşkili və turizm obyeklərinə turist sayının yüksək artımı arada işləyən peşə sahiblərinin peşəkarlığından çox asılıdır.

Turizm və Otelçilik üzrə Tədris Mərkəzi rayonumuzda, eləcə də respublikamızın digər yerlərində yerləşən hotellərdə və hər cür turist obyektlərində işləmək üçün ixtisaslı kadrlar hazırlayır. Bu tədris mərkəzinin nəzdində fəaliyyət göstərən mehmanxana inzibatçısı, aşpaz, ofisiant, barmen bufetçi, kompyuter operatoru, qənnadçı, şirniyyatçı kimi ixtisas qrupları hər il onlarla gənc bitirərək, rayonumuzda fəaliyyət göstərən «Qafqaz» Resort, «Qafqaz» Riverside, «Qafqaz» Sport, Karvansaray, Tufandağ və digər otellərdə işləyirlər. Tədris Mərkəzinin şagirdləri tez-tez rayonumuzdakı və respublikamızın müxtəlif yerlərindəki hotellərə ekskursiyalar edərək, bu hotellərin işi ilə tanış olur və əldə etdikləri nəzəri bilikləri təcrübədə yoxlayırlar. Son günlərdə mehmanxana inzibatçısı peşəsinə yiyələnən 39-cu qrup şagirdləri istehsalat təlim ustası Səbinə müəllimin rəhbərliyi ilə Tufandağ oteldə və Heydər Əliyev Konqres Mərkəzində oldular. Tufandağ Qış-Yay İstirahət Kompleksinin tərkibində turistlərə xidmət göstərən Tufandağ otelinin əməkdaşları şagirdlərə bələdçilik edərək, hotelin bütün xidmət sahələri haqda məlumatlar verdilər. Əzəmətli dağlar qoynunda yerləşən Tufandağ oteli öz diqqətçəkən komfortu və hər cür gözəl şəraiti ilə bura gələn bütün turistləri razı salir.




Heydər Əliyev Konqres Mərkəzində olan tədris mərkəzinin şagirdləri buraya gələn hər bir kəsi valeh edən müasir şərait və yeniliklərlə tanış oldular. Konqres Mərkəzindəki hər cür şəraiti olan çoxlu zallar, qısa müddətdə funkiyasını dəyişə bilən 1200 yerlik konfrans zalı, 350 yerlik restoran və media işçiləri üçün otaqlar, geniş foye və digər avadanlıqlar Konqres Mərkəzinin ən müasir və yüksək xidmət imkanlarına malik olduğunu göstərir.

Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin şagirdləri öz bilik və bacarıqlarını artırmaq üçün rayonumuzdan kənarda yerləşən otel və turist obyektlərinə də ekskursiyalar təşkil edirlər. Mingəçevir şəhərində yerləşən Kür otelinə ekskursiya da şagirdlər üçün faydalı və maraqlı olmuşdu. Tədris mərkəzinin şagirdləri çalışırlar ki, qazandıqları nəzəri bilikləri gələcək işlərində tətbiq etməklə, turizm və otelçilik xidmətləri sahəsində böyük uğurlar qazana bilsinlər. Uğurlar olsun!

**Aslan İSLAMOV,**
**tədris mərkəzinin müəllimi.**

# Qəsəbənin ziyalı oğlu



Hər bir insana onun əməlləri və zəkası şöhrət gətirir, onun başını el-oba yanında uca edir. Namiq Muradov da özünün bacarığı, savadı ilə yetişib xalqın arasına çıxan gözəl ziyalılardandır. Namiq 1956-cı ildə barlıbağatlı Bum qəsəbəsində hörmətli, seçilib tanınan ziyalı, İbrahim müəllimin ailəsində dünyaya göz açıb. Birinci sinfə 1963-cü ildə Bum qəsəbə tam (o vaxt kənd) orta məktəbində qədəm qoyub. Beşinci sinfə qədər burada oxuyub. Sonra təhsilini Bakının Mərdəkan qəsəbəsindəki 12 nömrəli internat məktəbində davam etdirib. Səkkizinci sinfi bitirdikdən sonra 1971—1973-cü illərdə respublika fizika-riyaziyyat təmayüllü internat məktəbində orta təhsilə yiyələnib. Müəllimlərin sevimlisi olan N. Muradov 1973-cü ildə respublika üzrə keçirilən fizika olimpiadasında fəal iştirak edib. O, həm də bu təhsil ocağında bir ictimaiyyətçi kimi özünü göstərib. Namiq həm də şagird özünüidarə təşkilatının sədri olub. Orta təhsilə yiyələnən gənc Namiq 1973-cü ildə indiki Dövlət Texniki Universitetinə qəbul olunub. Lakin bu sahəyə meyl və marağı olmadığı üçün birinci kursdan çıxıb. 1975-ci ildə o, Vətənin əsgəri xidmətinə yollanır. Hərbi xidmətini Sverdlovsk şəhərində keçir. Burada rabitəçi kimi yetişir. 1977-ci ildə hərbidən tərxis olunur. 1977-ci ildə Moskvada qülləli kran maşinisti peşəsinə yiyələnir.

Namiq Muradov 1980-ci ildə Moskva olimpiadası şəhərciyinin tikintisində fəal iştirak edir. 1980-ci ildə o, vətənə—Bakıya qayıdır və 86 nömrəli texniki peşə məktəbində radio aparatlarının tənzimləyicisi peşəsinə yiyələnir. Bu peşəyə yiyələnən Namiq Bakı aqreqat istehsal birliyində radio cihazlarının tənzimləyicisi işləyir. Bu müəssisə o zamankı ittifaq miqyasında ən qabaqcıl texnologiyalarla hava-yer tipli raket istehsal edən müəssisə idi. Namiq burada öz ixtisası üzrə ən yüksək dərəcəyə—6-cı dərəcəyə yiyələnir. 1985-ci ildə Ulyanovski şəhərinə gedir. Burada aviasiya sənaye kompleksində «An-124», Ruslan tipli yük təyyarələrinin istehsalı zavodunda işləyir. Gənc Namiq harada çalışmasından asılı olmayaraq orada öz bacarığı ilə fərqlənir. Bununla belə oxumaq arzusu hər an onu düşündürür.

1985-ci ildə indiki Samara Dövlət İqtisad Universtitenin Ulynovski filialının əməyin iqtisadiyyatı və sosialogiyası fakültəsinə qəbul olunur. Universiteti müvəffəqiyyətlə bitirən N. Muradov 1993-cü ildə yenidən Bakıya dönür. Azərbaycan nəşriyyatı nəzdində TAC dövlət şirkətində komissiya direktoru işləyir.

Namiq müəllim 1996-cı ildə qardaş Türkiyəyə üz tutur. Ankaradakı “Dostlar” şirkətlər qrupunda şərqi Avropa və MDB ölkələri üzrə koordinator işləyir. 1997-ci ildə isə Rusiyada yerləşən “Martur” Türk-rus ortaq şirkətində baş direktor kimi fəaliyyət göstərir. Namiq Muradov 2001-ci ildə özü Rusiyada “VİP-servis” şirkətini yaradır və onun direktoru olur. 2002-ci ildə isə Rusiyada “Vətən” qəzetini (Azərbaycan dilində) təsis edir və onun redaktoru olur. Yoşkar-Ola şəhərində buraxılan bu qəzet 10 min tiraj olmaqla 8 səhifədən 2-si rəngli buraxılır. Qəzet Rusiyanın 10 vilayətinə yayılır. Namiq müəllim 2002-ci ildə Avrasiya siyasi partiyasından “Mari” respublika təşkilatının sədri seçilir. 2003-cü ildə Rusiya Dövlət Dumasına deputatlığa namizəd göstərilir. 2003-cü ildə Yoşkar-Ola şəhərinin bələdiyyəsi onu “İlin adamı” seçir. Namiq Muradov çalışdığı bütün sahələrdə öz bacarığı, səmərələşdirici təklifləri ilə seçilir.

**Vətəni sevmək imandandır.**
**Məhəmməd Peyğəmbər (ə.s.).**

2007-ci ildə o, “Qloballaşma mühitində milli-iqtisadi sistemlərin rəqabət üstünlükləri” mövzusunda dissertasiya müdafiə edərək, iqtisad elmləri namizədi alimlik dərəcəsi alır. Namiq müəllim 2007—2010-cu illərdə Mari Dövlət Universitetində dərs deyir.

Bacarıqlı və işgüzar, vətənpərvər eloğlumuz Rusiyada yaşadığı illərdə Azərbaycan diasporunun fəal üzvlərindən biri olub.

2007-ci ildə Almaniyanın Köln şəhərində Dünya Azərbaycanlıları Konqresi idarə heyətinin üzvü seçilib.

2010-cu ildə Bakıya gələn eloğlumuz Azərbaycan Dövlət İqtisad Universitetində dosent vəzifəsində çalışır. Ailəlidir, bir qız, bir oğul övladı var. Namiq Muradov 2013-cü ildə yeni yaradılmış Dünya Azərbaycanlıları Forumunun ictimai birliyinin Bakı şəhərində keçirilən təsis qurultayında həmin forumun sədri seçilib.

2013-cü ildə Kazan Dövlət Universitetində Azərbaycan Şərqşünası, tarixçi, filoloq, Rusiya Elmlər Akademiyasının ilk azərbaycanlı üzvü Mirzə Kazım bəy irsinə həsr edilmiş Beynəlxalq konqres keçirilib. Bu tədbirin keçirilməsində həmyerlimiz olan Namiq İbrahim oğlunun da böyük təşəbbüsü olub.

2014-cü ildə Türklərlə birlikdə Dünya Azərbaycanlıları Formunun təşkilatçılığı ilə bir qrup azərbaycanlı gənc və ziyalılar Antalyanın Akdeniz Universitetində Novruz şənliyi keçirib. Bu tədbirin keçirilməsində də eloğlumuzun misilsiz əməyi olub.

Təəssübkeş və vətənpərvər eloğlumuz olan Namiq müəllim bir an belə yerində saymaq istəmir. Daim arayıb-axtarır, yeni cığırlar açmaq eşqi ilə çalışır.

Onun təşəbbüsü ilə 2014-cü ildə Bakıda Misir—Azərbaycan dostluğuna həsr edilmiş elmi-praktiki konfrans keçirilib. Yeni axtarışlar sorağında olan eloğlumuzun uğurları onu tanıyanların hamısını sevindirir.

Sənə yeni-yeni uğurlar arzulayırıq, Namiq müəllim!

**Emin BARATOĞLU,**
**AJB-nin üzvü.**